Ədalət.-2018.-30 iyun.-S.11.



**Seyran CAVADOV**

## *Təzad*

Sənə minnətdaram mən, ara sözü,
Neçə yol imdada, köməyə yetdin.
Cümləni cümləyə uyuşduraraq
Fikir ayrılığı, mənə yaratdın.

Sənə nifrətim var, ara adamı!
Paklığa, saflığa böhtan, şər atdın.
Girib arasına iki qardaşın,
Heç nəyin üstündə aranı qatdın.

## *Mən arzuyam*

Sanmayın ki, əsib keçən küləkdim,
Ümidlərə sığal ilə əl çəkdim.
Könüllərdə bağça saldım, gül əkdim.
Yaranışdan xislətimlə beləyəm,
Mən arzuyam, insanlara gərəyəm.

Mənsiz heç kəs mətləbinə yetişməz.
Calaq vursa, calağı da bitişməz.
Ömürlərə, talelərə gün düşməz.
Həm istəyəm, həm muradam, diləyəm,
Mən arzuyam, insanlara gərəyəm.

Yurd yerlərim milyon-milyon ürəkdir,
Büdrəyənə, yıxılana dirəkdir.
Əməllərim bu dünyaya bəzəkdir.
Fərhad kimi külüng çalan biləyəm,
Mən arzuyam, insanlara gərəyəm.

## *Sevənlərə hədiyyə*

**(30 İyun - Sevgililər Günüdür)**

Mənlik olsaydı əgər,
Hər gün, hər axşam, səhər
Yetərdim dadlarına,
Görüş, vüsal dəmini
Yazardım adlarına.
Yazın yaşıl rəngini,
Qəlblərin ahəngini,
Güllərin qəşəngini
Çələng kimi hörərdim,
Sevənlərə verərdim.

Baxmazdım xətası nə,
Cövrü nə, cəfası nə.
Ölüm qorxutsa belə,
İnanın ki, mən yenə
İlin baharın, yazın,
Hər kəsin bəxt ulduzun
Göydən endirib yerə:
”Sizinkidir”, - deyərdim,
Sevənlərə verərdim.

Yaxşı nə var dünyada,
Layiq bu ülvi ada.
Hər şeyin nübarını:
Yayda zirvə qarını,
Payızın bol barını
Yığıb güllü xonçaya:
”Bəzək olsun bir toya”, -
Deyib nəfəs dərərdim.
Onları hədiyyətək
Sevənlərə verərdim.